# Təsviri incəsənət üzrə Azərbaycan xalq yaradıcılığı növ və janrlarının əsas mahiyyəti

**Elnarə Qoşqar qızı Rəsulova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Gəncə Dövlət Universiteti*
**E-mail:** elnara.rasulova70@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. V.C. Xəlilov,
p.ü.f.d., dos. T.S. Paşayev

**Açar sözlər:** təsviri incəsənət, dekorativ tətbiqi sənət, xalq yaradıcılığı nümunələri, bədii fəaliyyət, estetik hiss, estetik zövq

**Ключевые слова:** изобразительное искусство, декоративно-прикладное искусство, образцы народного творчества, художественная деятельность, эстетическое чувство, эстетическое наслаждение

**Key words:** visual arts, arts and crafts, samples of folklore, artistic activities, aesthetic feelings, aesthetic pleasure

Milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən müasir təfəkkürlü və rəqabətə nailiyyətli kadrlar hazırlamaq, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

Qarşıya qoyulan bu mühüm vəzifələrin yerinə yetirilməsində ümumi təhsil məktəblərində tədris olunan fənlərin, o cümlədən "Təsviri incəsənət" fənninin mühüm rolu, təsir imkanları vardır.

Bədii-estetik fənlər sırasında xüsusi yer tutan təsviri incəsənət fənni məzmuna, inkişafetdirici xüsusiyyətlərinə görə də mühüm əhəmiyyətə malikdir. Buna görə də orta ümumi təhsil məktəblərində bu fənnin tədris səviyyəsinin yüksəlməsinə, əlverişli tədris materiallarına istinad olunmasına xüsusi diqqət yetirilməlidir. Təsadüfi deyildir ki, ölkəmizdə həyata keçirilən təhsil islahatı prosesində bu fənn əvvəlki dövrlərdən fərqli olaraq I-IX siniflərdə, yəni natamam orta təhsil illərində tədris edilir. Belə bir mövqe ümumi təhsilin mühüm əhəmiyyət kəsb edən mərhələsində təsviri incəsənət fənninə xüsusi diqqət yetirilməsi ilə əlaqədardır. Təsviri incəsənətin idraki-tərbiyəvi əhəmiyyətinin təhsil sisteminin müxtəlif dövrləri əhatə edən inkişaf mərhələlərində diqqətə çatdırılması mühüm əhəmiyyət kəsb edir.

Xalqımızın bədii yaradıcılıq nümunələri həmişə təravətli və təsirli olub. Musiqi, ədəbi folklor, habelə təsviri sənət nümunələri həmişə, hər yerdə maraqla qarşılanıb. Ancaq etiraf edək ki, təsviri sənət üzrə xalq yaradıcılığı nümunələri bədii-estetik mahiyyətinə, həyat və məişətdəki mövqeyinə, təhsil və tərbiyəvi əhəmiyyətinə görə daha çox diqqət mərkəzində olmuşdur. Belə bir mövqe bir sıra cəhətlərlə əlaqədardır. Qədimdən-qədim dövrlərdən indiyədək mövcud olan milli yaradıcılıq ənənələri görkəmli sənətkarlar tərəfindən daha da inkişaf etdirilmişdir. Xalq sənətini öyrədən, öyrənən təhsil və tərbiyə məktəbi yaranmışdır.

Dünya təsviri sənət sərgilərində həmişə çox böyük maraqla qarşılanmışdır. İfadə vasitələrinə, forma, rəng əlaqələrinə görə diqqəti çəkən nümunələr müxtəlif qəbildən olan insanlar-tərəfindən yüksək qiymətləndirilmişdir.

Əsrlərin sınağından çıxaraq bizim günlərə çatan xalq yaradıcılığı-xalq sənəti nümunələri öz növbəsində müxtəlif nəsillərin bədii zövq tərbiyəsində, bədii-estetik fəaliyyətinin inkişafında mühüm rol oynamışdır.

Azərbaycan xalq yaradıcılığının mühüm bir sahəsi olan təsviri sənət haqqında dəyərli tədqiqatların müəllifləri kimi tanınan, görkəmli sənətşünas alimlərimizdən olan Məmməd Tərlanov və Rasim Əfəndiyevin hələ 1960-ci ildə Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı Nəşriyyatı tərəfindən çap edilən "Azərbaycan xalq sənəti" adlı elmi metodik vəsaitində problemin əsas mahiyyəti ilə bağlı cəhətlər daha anlaşıqlı şəkildə nəzərə çatdırılır.

"Xalq sənəti-xalqın əməyi sayəsində yaranıb onun həyatını təmin edən və özündə xalqın bədii zövqünü əks etdirən təsviri və tətbiqi sənətə deyilir. Xalq sənəti milli çərçivə daxilində yaranıb xalqın mədəniyyətini təşkil edir.

Azərbaycan mədəniyyəti tarixində xalq sənəti ən mühüm yerlərdən birini tutur. Bu sənətin bir çox nümunələrinin dünya əhəmiyyəti vardır. Buna görə də müxtəlif ölkələrin muzeylərində bu sənət nümunələrinin layiqli yer tutması təsadüfi deyildir. Xalq sənətindən olan xalılar, müxtəlif təkəlduz nümunələri, toxuma və basma parçalar, zərgərlik şeyləri, metaldan, ağacdan, çinidən və daşdan hazırlanmış müxtəlif bədii sənət əsərləri həmişə geniş xalq kütlələrinin həyatına nüfuz etmiş, onların məişətini zənginləşdirmişdir.

Göründüyü kimi, burada təsviri sənət üzrə Azərbaycan xalq yaradıcılığının mükəmməl mənimsəmək eyni zamanda doğma yurda bağlılıq, vətənpərvərlik hisslərini qüvvətləndirir. Əgər nəzərə alsaq ki, sənətin mahiyyətindən, əsas xüsusiyyətlərindən asılı olaraq növ daxilində növ, janr yaranır. Bütün bunlar isə müxtəlif dövrlərdə aparılan tədqiqat işlərinin mahiyyət doğruluğuna müsbət təsir göstərir. Dövrün tələbinə uyğun əsərlərin yaranmasına səbəb olur.

"Azərbaycan incəsənəti xalqımızın tarixi qədər qədim və zəngindir. Qobustanın qaya təsvirləri, Qafqaz Albaniyasının bədii keramika və metal məmulatı, bədii şüşə və oyma sənəti, orta əsrlərdə dünya şöhrəti qazanmış Təbriz miniatür sənəti nümunələri, rəngarəng xalçalar, tikmələr, şirəli saxsı qablar, kaşı sənəti, zərif oyma şəbəkələr və gözəl zərgərlik məmulatları bütün bunlar bədii irsimizin çox zəngin olduğunu sübut edir.

Təqdirəlayiq cəhətlərdən biri də budur ki, göstərdiyimiz elmi mənbələrdə təsviri incəsənət üzrə xalq yaradıcılığının daha geniş yayılan növləri üzərində dayanılır.

"Azərbaycan xalq sənəti kitabının ilk bölməsi "Daş bəzəkləri" adlanır. Burada öz əksini tapan və tarixin daş yaddaşı əsasında nəzərə çatdırılan faktlar, nümunələr ümumi təhsil məktəblərində çalışan təsviri incəsənət müəllimləri üçün də maraqlıdır.

"Respublikamızda qeyd edilmiş ən qədim daş üzərində bəzək tarixi 3-4 min il bundan əvvələ aiddir. Bakının 60 m cənubunda Qobustan adlı yerdə tapılan abidələr öz üzərindəki maraqlı təsvirləri ilə alimlərin nəzərini xüsusilə cəlb etmişdir. "Böyükdaş", "Kiçikdaş" və "Yazılı" adlı qayaların üzərində həkk edilmiş 2 mindən artıq rəsm yazıları müxtəlif vaxtlarda naməlum adamlar tərəfindən qoyulmuşdur. Burada heyvan növləri təsviri, ən ibtidai geyim və müxtəlif dini ayin səhnələrini əks etdirən təsvirlərdə vardır. Oymaların üzərindəki təsvirlərin nisbətən arxaik üsulda işlənməsinə baxmayaraq, onlarda Azərbaycan qrafika sənətinə xas olan bəzi xüsusiyyətlər də öz əksini tapmışdır. Ritmli plastik hərəkət\zərif konturlu xətlər\ bu təsvirlərə aiddir. Oymalarda yallı oyununu andıran bir qrup fiqur rəqsi, maral, keçi təsvirləri diqqəti cəlb edir.

Heç şübhəsiz, təsviri incəsənətin tədrisiylə məşğul olan müəllimlər tarixi sütunlara əsaslanan belə məlumatlarla tanış olmalıdırlar. Nəzəri məlumatların mükəmməl qavranılmasını təmin edən əyani illüstrativ vasitələr əsasında mənimsənilməsi isə V-IX siniflərdə keçilən hər bir dərsin səmərəliliyini artıran mühüm pedaqoji prinsip kimi dəyərləndirilməlidir.

Azərbaycan xalq yaradıcılığının xalq sənətinin əsas sütunlarını təşkil edən "Daş bəzəkləri", "Saxsı və çini qablar", "Metal və zərgərlik", "Ağac bəzəkləri", "Parça sənəti", "Xalçaçılıq", "Təkəlduz", "Əlbəsə", "Divar rəsmləri" həmin sahələr üzrə ayrı-ayrı nümunələrin bədii sənətkarlıq xüsusiyyətləri haqqında mükəmməl məlumata yiyələnən müəllimlər tədrisin səmərəliliyinə nail ola bilərlər.

Təsviri incəsənət üzrə Azərbaycan xalq yaradıcılığı nümunələri xalqımızın çoxəsrlik mədəniyyətinin heç zaman təravətdən düşməyən etibarlı və hər zaman çox qüvvətli bədii təsir qüvvəsinə malik olan dəyərlərdən sayılır. Diqqəti cəlb edən əsas cəhətlərdən biri budur ki, bu dəyərlərin tutumu, təhsil və tərbiyəvi əhəmiyyəti tarixi inkişafın müxtəlif mərhələlərində görkəmli sənətkarların sənətşünas alimlərin də diqqət mərkəzində olmuşdur. Sənətşünaslıq üzrə elmlər doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Rasim Əfəndiyev uzun illər apardığı araşdırmaların nəticəsi olaraq hələ 1980-ci ildə nəşr etdirdiyi "Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində" əsərində yazır.

"Xalqımızın əməyi sayəsində yaranıb onun həyat və məişətində geniş istifadə edilən el sənətlərimizin böyük və zəngin bir tarixi vardır".

Araşdirmalar göstərmişdir ki, Azərbaycan ərazisində yaşayan tayfalar hələ 4 min il bundan əvvəl daşdan, gildən, metaldan orijinal formalı qab-qacaq, silah və bəzək örnəkləri düzəldib öz həyat və məişətlərində istifadə etmişlər.

Bu sənət əsərləri öz orijinal forması, dəqiq işlənməsi və xüsusən üzərindəki bəzəkləri ilə çoxdandır sənət araşdırmalarının diqqətini özünə cəlb etmişdir.

Görkəmli sənətşünas alimin gəldiyi bu qənaət də xüsusi maraq doğurur. Belə ki, tarixi həqiqətləri, sənətlə bağlı məsələləri mükəmməl mənimsəmək də problemliyi ilə həmişə diqqəti cəlb edir. Belə bir mövqe də öz növbəsində təhsil və tərbiyəsi əhəmiyyəti ilə daha çox yadda qalır. Unutmaq olmaz ki, sənətin tarixi inkişafı ilə irəli sürülən fikir və mühakimələr eyni zamanda problem dairəsində çalışan gənc tədqiqatçılar üçün də əhəmiyyətlidir. Akademik Rasim Əfəndiyevin "Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində əsərində gəldiyi qənaət də yuxarıda göstərdiyimiz istiqamətlər baxımından xüsusi maraq doğurur.

"Azərbaycan sənətkarlığının yüksək texniki və bədii xüsusiyyətləri həmişə onu görənləri valeh etmişdir. Hələ uzaq keçmişlərdə ölkəmizə gəlmiş xarici ölkə müsafirləri bu sənət əsərlərini əldə etməyə can atmışlar. Bu barədə biz müxtəlif vaxtlarda Azərbaycanda olmuş əcnəbi səyyah, diplomat və tacirlərin gündəliklərində çoxlu rəylərə rast gəlirik.

"İndi biz fəxrlə Londonun Viktoriya və Albbert, Parisin Luvr, Vasinqtonun Metropoliten, Vyananın, Romanın, Berlinin, İstanbulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına baxarkən orada Təbriz, Naxçıvan, Gəncə, Qazax, Quba, Bakı, Şəki, Şamaxı və Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görürük.

Azərbaycan xalq yaradıcılığının çox mühüm bir sahəsini təşkil edən təsviri sənət nümunələri çox mühüm təhsil və tərbiyəvi əhəmiyyətə malikdir. Buna görə də bu istiqamətdə ayrı-ayrı növ və janrlarla, onların əsas əhəmiyyətini əks etdirən əsərlərlə tanış olmaq öz növbəsində təsviri incəsənət tədrisi ilə məşğul olan müəllimlərin pedaqoji fəaliyyətinin əsas istiqamətlərindən biri olmalıdır.

"Azərbaycan xalqının qədim sənət və peşələrindən biri toxuculuq işi ilə əlaqədar olan bədii parça istehsalıdır. Zəngin naxışlı və rəngarəng çeşidli toxumalar xalq ustalarının bədii fikir və yaradıcı təxəyyülünü özündə təcəssüm etdirməklə, ümumilikdə xalqın bədii estetik tərbiyəsinin inkişafında mühüm rol oynayır. Bədii parçalar dövrün inkişaf tarixini özündə əks etdirən əyani nümunələrdir.

Haqqında bəhs etdiyimiz əsərdə diqqəti cəlb edən cəhətlərdən biri də bədii parça və tikmə-

lərin estetik mahiyyətinin tarixi faktlar əsasında nəzərə çatdırılmasıdır.

"XIX-XX əsr bədii parçaları da xalqımızın məişətində özünəməxsus yer tutmuşdur. Belə ki, bədii parçalardan müxtəlif ölçülü örtüklər, geyim və məişət nümunələri, sərrac malları və s. hazırlanırdı.

Həmin əsr Azərbaycan bədii parça və tikmələrin bəzi orijinal nümunələrinə hazırda Bakı, Moskva, Leninqrad, Tbilisi və eləcə də bir sıra Avropa muzeylərində rast gəlmək olur.

Təsviri incəsənət üzrə Azərbaycan xalq yaradıcılığının ayrı-ayrı növ və janrlarının hər birinə aid nümunələrin müxtəlif nəsildən olan insanlara göstərdiyi təsir imkanları çox genişdir. Xalq sənəti nümunələri ilə tanış olan hər kəs, o cümlədən uşaq və yeniyetmə məktəblilər ulularımızın müqəddəs sənət nümunələrinin əsas mahiyyətini düzgün başa düşmək səyi ilə yaşayırlar. Buna görə də ayrı-ayrı nümunələr haqında ibtidai siniflərdən başlayaraq müxtəlif yaş qruplarına aid olan məktəblilərdə düzgün anlayış və bədii-estetik fəaliyyət inkişaf etdirilməli, formalaşdırılmalıdır. Bu işin səçərəliliyinə zəmin yaradan əsas istiqamətlərdən biri müvafiq pedaqoji prinsiplərin düzgün müəyyənləşdirilməsidir.

Təsviri incəsənət müəllimlərinin, habelə hər hansı məktəbdə fəaliyyət göstərən dərnək, studiya rəhbərlərinin Azərbaycan xalq yaradıcılığı nümunələri ilə müntəzəm tanış olmaları, əsas mahiyyəti düzgün başa düşmələri qarşıya qoyulan mühüm vəzifələrdən sayılır. Bununla belə, ayrı-ayrı növ və janrlara malik olan bir sıra nümunələrin pedaqoji prosesə, təlim-tərbiyə prosesinə gətirilməsi problemin başlıca cəhətlərindən biri kimi dəyərləndirilməlidir.

**Məqalənin aktuallığı.** "Təsviri incəsənət" fənninin problemlə əlaqədar məzmununun müasir tələblər səviyyəsində müəyyənləşdirilməsinə əhəmiyyətli təsir göstərəcək.

**Məqalənin elmi yeniliyi.** V-IX siniflərdə şagirdləri təsviri incəsənət üzrə Azərbaycan xalq yaradıcılığı nümunələri ilə tanış etməyin pedaqoji əsasları müəyyənləşdirmək imkanı verəcək.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ümumtəhsil məktəblərində çalışan ixtisas müəllimlərinin, habelə digər müvafiq mütəxəssislərin nəzəri-praktik hazırlığını artıracaq.

## Ədəbiyyat

1. R. Əfəndiyev. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı. İşıq, 1980.

2. Ümumtəhsil məktəblərində Azərbaycan dekorativ tətbiqi sənət nümunələri haqqında müsahibələrin təşkili. Metodik tövsiyə. Bakı, 1990.

3. G. Əliyeva, Azərbaycanın bədii xalça və tikmələri: XIX-XX əsrlər. Bakı: Elm, 1990.

**Э.Г. Расулова**

## Основная сущность видов и жанров народного творчества Азербайджана по изобразительному искусству

## Резюме

Статья посвящена преподаванию образцов азербайджанского народного искусства в V-IX классах общеобразовательных школ. Излагается художественно-эстетическое значение образцов декоративно-прикладного искусства, упомянутых на уроках изобразительного искусства и во внеклассных занятиях. Большой интерес учащихся к изобразительному искусству Азербайджана связан с типами и жанрами, отражающими древ-

нюю историю и богатство искусства. Эти произведения искусства давно привлекают внимание искусствоведов своей оригинальной формой, точным дизайном и особенно изображенными на них узорами.

**E.Q. Rasulova**

## The main essence of the types and genres of folk art of Azerbaijan in fine arts

## Summary

The article is devoted to the teaching of samples of Azerbaijani folk art in V-IX classes of secondary schools. The artistic and aesthetic value of the decorative and applied art samples mentioned in the lessons of fine art and in extracurricular activities is described. The great interest of students in the visual arts of Azerbaijan is associated with types and genres that reflect the ancient history and richness of art. These works of art have long attracted the attention of art historians with their original form, precise design and the patterns especially depicted on them.

**Redaksiyaya daxil olub:** 09.02.2021